# Azad Xəlil oğlu Mirzəcanzadə (1928-2006)

Görkəmli şəxsiyyət, alim və pedaqoq Azad Mirzəcanzadə 29 sentyabr 1928-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1944-1949-cu illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mədən fakültəsində təhsil almış, 1951-ci ildə 23 yaşında texnika elmləri üzrə namizədlik, 1957-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. O, 1959-cu ildə professor elmi adını almış, 1962-ci ildə AMEA-nın müxbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Azad müəllim 1948-1958-ci illərdə AMEA-nın Neft İnstitutunda və Neft Ekspedisiyasında baş laborant, kiçik elmi işçi, böyük elmi işçi və şöbə müdiri, 1958-1968-ci illərdə Azərbaycan Dövlət Neft Sənayesi Nazirliyi nəzdində "Elmi-Tədqiqat Neftçıxarma" İnstitutunda, həmçinin 1956-1969-cu illərdə SSRİ EA-nın "Mexanika Problemləri" İnstitutunda laboratoriya müdiri, 1969-1973-cü illərdə keçmiş "Ümumittifaq Elmi-Tədqiqat Neft İnstitutunun" Neft-qaz dinamikası laboratoriyasının müdiri, 1992-ci ildən Azərbaycan Dövlət Neft Akademiyası nəzdində olan "Neftin, qazın geotexnoloji problemləri və Kimya" ETİ-nin direktoru vəzifəsində çalışmışdır.

Azad Mirzəcanzadə 35 ildən çox müddət ərzində Moskvada keçmiş Ümumittifaq Neft-Qaz Elmi-Tədqiqat İnstitutunda elmi istiqamətə rəhbərlik etmişdir. Onun tələbələrinin çoxu həmin institutda rəhbər vəzifələrdə çalışmış və bu gün də onların bir qismi fəaliyyətlərini davam etdirirlər.

Həyatda və yaradıcılıqda yüksək tərbiyəli olmaq, bütün hallarda öz şəxsi ləyaqətini qoruyub saxlamaq, özünə inama malik olmaq böyük alimin əqidəsi idi.

Onu tanıyan məşhur adamların və alimlərin yekdil fikirlərinə görə, Azad Mirzəcanzadə dövrümüzün elmdə fenomenidir. O, Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi görkəmli xadimlərdən biridir. Keçmiş Sovetlər İttifaqında neft elminin formalaşmasında və inkişafında Azad müəllimin çox böyük xidmətləri olmuşdur.

Azad Mirzəcanzadə mexanika, neft, qaz və qaz-kondensat yataqlarının işlənməsinin texnika və texnologiyası sahəsində fundamental elmlərin əsasını qoyanlardan biridir. Elmin inkişafında mühüm xidmətləri olan Azad Mirzəcanzadə tətbiqi mexanika və neft-mədən işləri sahəsində qiymətli araşdırmalarla böyük şöhrət qazanmışdır.

Neftin çıxarılmasında texnoloji proseslərin mexanikası, riyazi, fiziki metodların tətbiqi ilə bağlı problemlər fundamental elmlərin nəzəri məsələləri səviyyəsində məhz onun tərəfindən araşdırılmışdır. Alimin neft və qaz-kondensat yataqlarının mənimsənilməsi və istismarının əsaslarına həsr olunmuş tədqiqatlarında neft sənayesinin qazma və neft-maşınqayırma kimi sahələrinin aktual problemləri öz həllini tapmışdır. 100-dən çox monoqrafiyanın, 400-dən artıq elmi əsərin, 50-dən çox ixtira və patentin müəllifi olan Azad Mirzəcanzadə elmi fəaliyyətində neft və qazın çıxarılması proseslərinin qlobal optimallaşdırılmasına xüsusi diqqət yetirmişdir. Dəniz neft, qaz və qaz-kondensat yataqlarının işlənməsində dinamik metodların tətbiq edilməsi tanınmış alimin başlıca elmi nailiyyətləri sırasındadır. Yaradıcılığının son dövründə onun tədqiqatlarının əsas elmi istiqamətləri neft-qaz yataqlarının işlənməsi proseslərində sinergetik təhlillər, «fəlakət» və «yırtıcı və qurban» nəzəriyyələri, fraktal təhlillər və s. riyazi üsulların və nanotexnologiyaların tətbiqi təşkil edirdi.

Azad Mirzəcanzadə nüfuzlu beynəlxalq konfrans və simpoziumlardakı çıxışları ilə Azərbaycan elmini daim ləyaqətlə təmsil etmişdir. Onun qazandığı uğurlar Azərbaycan elminin ölkəmizin hüdudlarından kənarda tanınmasında böyük rol oynamışdır. Bir sıra mötəbər beynəlxalq elmi qurumların həqiqi üzvü olan alimin neft və qaz yataqlarının işlənməsi, neft hasilatının texnika və texnologiyasına dair əsərləri dünya elmində özünəməxsus yer tutmuşdur.

Azad Mirzəcanzadənin enerji kompleksi sahəsində yaradıcılığına Azərbaycan elminin və bütövlükdə ali təhsilin inkişafında ən vacib amillərdən biri kimi baxmaq lazımdır.

Geniş maraq dairəsi olan Azad Mirzəcanzadə elmi yaradıcılığı pedaqoji fəaliyyətlə də ahəngdar şəkildə tamamlamışdır. O, yüksəkixtisaslı kadrların hazırlanmasına böyük əmək sərf etmiş. Azərbaycan Respublikasının hazırkı mərhələsində ölkə iqtisadiyyatının inkişafı üçün güclü elmi potensialın yaradılmasında yaxından iştirak etmişdir. Azad Mirzəcanzadə məktəbinin yüzlərlə yetirmələri Respublikamızda, habelə xarici ölkələrdə

neft sənayesinin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Azad Mirzəcanzadənin pedaqoji fəaliyyəti 1944-cü ildə Bakı şəhərində 44 №-li orta məktəbdə müəllim vəzifəsindən başlamışdır. O, həyatını gənc nəslin təlim-tərbiyəsinə həsr edərək, 1951-1957-ci illərdə Azərbaycan Dövlət Universitetinin nəzəri mexanika kafedrasının dosenti, 1957-1959-cu illərdə professoru, 1959-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifəsində işləmişdir. Mahir pedaqoq kimi böyük nüfuza malik olan akademik Azad Mirzəcanzadə orta məktəblərdə dəqiq elmlərin tədrisi ilə bağlı bir sıra layihələrin də müəllifi olmuşdur.

Tədris onun həyatında qırmızı xətlə keçir. O, Allah tərəfindən vergi verilən pedaqoq idi. Təsadüfi deyil ki, hələ cavan yaşlarında o, əmək fəaliyyətinə məktəbdə dərs deməklə başlamışdır. Onun auditoriyasının diapazonu qeyri-adi idi: məktəblilərdən başlamış ən yüksək biliyə malik ixtisaslı mütəxəssis və alimlərə kimi. Azad Mirzəcanzadə orijinal riyazi və fiziki məsələləri, qeyri-adi effektləri, qaydaları, üsulları və s. həmişə axtarır, seçir və öz dinləyicilərinə böyük məharətlə təqdim edirdi. Onun pedaqoji yaradıcılığı inanılmaz dərəcədə müxtəlifdir. Bu yaxın və uzaq xarici ölkələrdə böyük topluda müxtəlif kurslar üzrə mühazirələrin oxunması, 300-dən çox elmlər namizədi və 100-dən artıq elmlər doktoru yetişdirməsi, dərsliklərin, dərs vəsaitlərinin nəşr etdirməsi, saysız-hesabsız seminarların, konfransların təşkili və bunlarda müxtəlif mühazirələrin oxunması və dərslərin keçirilməsi, istedadlı uşaqlara önəmli xarici tədris ocaqlarında təhsillərinin davam etdirilməsi üçün şəraitin yaradılması və çoxlu sayda digər fəaliyyətlərində özünü əks etdirir.

Elmi və pedaqoji fəaliyyəti ilə yanaşı, Azad Mirzəcanzadə elmin təşkili və idarə olunması prosesində fəal iştirak edərək, 1992-2001-ci illərdə Azərbaycan Ali Attestasiya Komissiyasının sədri olmuş, 1993-2001-ci illərdə Dövlət Elm və Texnika Komitəsinə və 1996-2006-cı illərdə "Azərbaycan neft təsərrüfatı" jurnalına rəhbərlik etmiş, Azərbaycan elminin dünyaya inteqrasiyası üçün bilik və bacarığını əsirgəməmişdir.

Azad Mirzəcanzadənin yarım əsrdən çox dövrü əhatə edən elmi fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 1959-cu ildə "Şərəf nişanı" ordeni, 1966 və 1982-ci illərdə Qırmızı Əmək Bayrağı ordenləri, 1968-ci ildə Azərbaycan Respublikası Neft Sənayesi Nazirliyinin Fəxri fərmanı, 1970-ci ildə "Əməkdə fərqlənməyə görə" medalı, Azərbaycan Respublikasının əməkdar elm və texnika xadimi, 1971-ci ildə SSRİ-nin fəxri neftçisi, 1975-ci ildə "Qeyri-Nyuton sistemlərinin neft hasilatında tətbiqinə görə" İ.M.Qubkin ad. mükafatı, 1976-cı ildə neft hasilatında texnoloji proseslərin mexanikası üzrə silsilə işlərə görə elm və texnika sahəsində Azərbaycan Respublikasının Dövlət mükafatı, 1978-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin Fəxti fərmanı, SSRİ qaz sənayesinin fəxri işçisi, 1980-ci ildə Bolqarıstanın fəxri neftçisi, 1982-ci ildə neft və qaz-kondensat yataqlarının işlənməsi, təbii qazın hasilatı və nəqli proseslərinin effektivliyinin yüksəldilməsi üzrə silsilə işlərə görə İ.M.Qubkin ad. mükafatı, 1983-cü ildə SSRİ Neft və Qaz Sənayesinin ETŞ-nin fəxri üzvü, 1985-ci ildə "Layların neftvermə əmsalının yüksəldilməsi və neft hasilatının intensivləşdirilməsi üçün yeni fiziki-kimyəvi üsulları kompleksinin nəzəri əsaslarının işlənməsi və sənayedə tətbiqi» işinə görə İ.M.Qubkin ad. mükafatı, 1986-cı ildə Azərbaycan dilində "Neft layının fizikası" dərsliyinin yaradılmasına görə Azərbaycan Respublikasının Elm və Texnika üzrə Dövlət mükafatı, neft və qaz quyularının bərkidilməsi üçün yeni xüsusi tamponaj materiallarının yaradılması, seriyalı istehsalının təşkili və geniş miqyasda tətbiqinə görə SSRİ Nazirlər Sovetinin mükafatı, dəniz qaz və qaz-kondensat yataqlarının işlənməsinin metodiki əsaslarının yaradılmasına görə SSRİ Ali və Orta Təhsil Nazirliyinin mükafatı və Oktyabr İnqilabı ordeni, 1996-cı ildə P.L.Kapitsa ad. medalı, Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan "İstiqlal" ordeni ilə təltif olunmuşdur.

Azad Mirzəcanzadənin xatirəsini, vəfatından sonra əbədiləşdirmək üçün bir sıra işlər görülmüşdür: Fəxri xiyabanda onun məzarı üstündə heykəli ucaldılmış, ömrü boyu yaşadığı evin divarında və uzun müddət rəhbərlik etdiyi "Neft yataqlarının işlənməsi və istismarı" kafedrasında barelyefləri quraşdırılmış və xatirə otağı fəaliyyət göstərir.

Azad Mirzəcanzadə haqqında çox yazılıb, deyilib və televiziya verilişləri təşkil olunmuşdur. Gələcək nəslin onu tanıması üçün müasir informasiya texnologiyasının nailiyyətlərindən istifadə edərək onun haqqında məlumatları, elmi nailiyyətlərini əks etdirən əsərlərini, kitablarını, yaratdığı elmi istiqamətlərin mahiyyətini, onun pedaqoji fəaliyyətini və gənc nəslin tərbiyəsində rolunu əks etdirən yazıları və s. internet səhifələrində yerləşdirib yaymaq məqsədəuyğundur.

Azad Mirzəcanzadənin işıqlı xatirəsini yad etməklə bərabər, onun elmi və pedaqoji yaradıcılıq yolu, şübhəsiz ki, Azərbaycanın gənc elmi və mühəndis kadrlarına təqlid edilməsi üçün önəmli nümunə ola bilər.

**"Azərbaycan neft təsərrüfatı" jurnalının**
**redaksiya heyəti və kollektivi**